**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Fəlsəfə kafedrası**
**İxtisas:** (İPFS-B06)

# HUMANİTAR ELMLƏRİN FƏLSƏFİ PROBLEMLƏRİ

**(bakalavr təhsil pilləsi üçün)**

**İxtisas kursunun**

**PROQRAMI**

**Bakı Dövlət Universitetinin Rektorunun 19.04.2019-cu il, R-45 saylı əmri ilə təsdiq edilmişdir.**

**Bakı-2019**

**Tərtibçilər: Fəl.üzrə.fəl.dok. N.İ.Kərimova**

**Fəl.üzrə.fəl.dok. D.C.Vəliyev**

**Elmi redaktor: dos.K.H.Pənahova.**

**Rəyçilər: prof. Z.C.Hacıyev**

**Dos. K.H.Pənahova**

**“Bakı Universiteti” nəşriyyatı, 2019.**

## İzahat vərəqi

Sosial-humanitar idrak idraki fəaliyyət formalarından biri olmaqla sosial hadisə və prosesləri (cəmiyyəti, mədəniyyəti və insanı) öyrənir və məhz bu xüsusiyyətinə görə, digər idrak formalarından (təbii-elmi idrak, qnoseologiya, epistemologiya, məntiq, koqnitologiya və s.) fərqlənir.

Elmi ədəbiyyatda sosial idrak, humanitar idrak, sosial-humanitar idrak, «ruh haqqında elm» (İ.Diltey), «mədəniyyət haqqında elm» (Q.Rikkert) sinonim anlayışlar kimi işlədilir.

Sistemli xarakterə malik olmasına baxmayaraq, sosial-humanitar idrakı tədqiqat metod və predmetindən asılı olaraq bir sıra elementlərə, daha dəqiq desək, konkret elmi istiqamətlərə (Sosial fəlsəfə, tarix, iqtisaldi nəzəriyyə, sosiologiya, politologiya, mədəniyyətşünaslıq, sənətşünaslıq, arxeologiya, pedaqogika, hüquqşünaslq, filologiya, linqivistika və s) ayırmaq olar. Lakin hələ indiyə qədər sosial-humanitar elmlərin hamı tərəfindən yekdilliklə qəbul edilmiş tam, bitkin təsnifatı mövcud deyildir.

Bəzi tədqiqatçılar ictimai elmləri xüsusi bilik strukturu kimi ayırmağın mənasız olduğunu güman edir, cəmiyyətdə yarandığı, sosial-mədəni səbəblərlə şərtləndiyi və müəyyən funksiya yerinə yetirdiyinə görə, hər bir idrak formasını sosial idrak hesab edirlər. Bununla yanaşı, sosial-humanitar və təbii-elmi idrakın münasibəti probleminin həllinə dair tarixən yaranmış iki əks mövqe (naturalizm və antinaturalizm) özünü göstərmiş və öz mövcudluğunu bu gün də qoruyub-saxlamışdır.

**Fənnin mənimsənilməsi məqsədləri:**

“Humanitar elmlərin fəlsəfi problemləri” kursunun tədrisində məqsəd tələbələrdə fundamental nəzəri biliklərə maraq oyatmaq, son dərəcə spesifik xüsusiyyətlərə malik sosial reallığın sosial-humanitar idrakın obyekti olduğunu başa salmaq və ictimai həyat hadisələrinin fəlsəfi qiymətləndirilməsinə onlarda tələbat yaratmaqdan ibarətdir. Bundan başqa, tələbələrin müəyyən idraki qabiliyyətlərinin inkişafı, onlarda intellektual, professional və əxlaqi keyfiyyətlərin tərbiyə edilməsi fənnin mənimsənilməsi məqsədlərinə daxildir.

**Digər fənlər stukturunda fənnin yeri:**

“Humanitar elmlərin fəlsəfi problemləri” fənni bakalavr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Sosial-humaintar elmlərin əhatə dairəsi son dərəcə geniş olub, özündə pedaqogika, psixologiya, sosiologiya, politologiya, arxeologiya, hüquqşünaslıq, iqtisadi nəzəriyyə, mədəniyyətşünaslıq və s. elmləri bir tam halında birləşdirir.

Fənnin mənimsənilməsi nəticəsində tələbələr

**Bilməlidir:**

- Sosial-humanitar idrakın elmi idrak formalalrından biri olduğunu;
- Sosial-humanitar elmlərin yaranma və inkişaf tarixini;
- Sosial-humanitar idrakın özünəməxsus xüsusiyyətlərinin olduğunu;
- Sosial-humanitar elmlərin metodoloji problemlərini;
- Sosial-humanitar metodologiyanın yeni paradiqmasının işlənib-hazırlanması zərurətini və s.

**Bacarmalıdır:**

- Son dərəcə mürəkkəb sistem olan cəmiyyətin hərtərəfli təhlil və dərk etmək;
- Müasir dünya alimlərinin sosial-humanitar sahədə irəli sürdükləri fikirlərə konstruktiv-tənqidi mövqedən yanaşmaq;
- Nəzəri biliklərin praktik tətbiqinə nail olmaq;

**Səriştələrə yiyələnməlidir:**

- Müasir elmin inkişaf meyllərini təhlil etməyi bacarmaq, öz elmi imkanlarını inkişaf etdirmək və onları həyata keçirmək vərdişlərinə yiyələnmək;
- XX əsrin 80-90-cı illərindən etibarən postsovet məkanında baş verən köklü iqtisadi-siyasi dəyişikliklər nəticəsində təhsil sahəsində yaranan dəyişiklikləri bilmək;
- Fəlsəfə və sosial-humanitar fənnlərin məzmununda ciddi dəyişikliklərin baş verdiyini başa düşmək və s.

Təqdim olunan proqram ali təhsilin bakalavr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Tərtib olunan proqramda mühazirələr 30, seminar məşğələləri 30 saat həcmində müəyyən olunur.

## "Humanitar elmlərin fəlsəfi problemləri" kursu üzrə mövzuların və saatların şəbəkəsi

| № | MÖVZULAR | Mühazirə | Məşğələ |
|---|---|---|---|
| 1. | İdraki fəaliyyət sistemində sosial-humanitar idrakın yeri. | 2 s | 2 s |
| 2. | Sosial-humanitar idrak predmetinin dərkinə dair materialist və idealist yanaşmalar. | 2 s | 2 s |
| 3. | Cəmiyyət haqqında elmlərin formalaşmasında fəlsəfənin rolu. | 2 s | 2 s |
| 4 | Sosial-humanitar elmlərin formalaşması. | 2 s | 2 s |
| 5. | Dilteyin təsviri psixologiyası və hermenevtikası. | 2 s | 2 s |
| 6 | Neokantçılığın Baden məktəbi. | 2 s | 2 s |
| 7 | Qusserel "Ruh haqqında elm"in səciyyəvi xüsusiyyətləri haqqında. | 2 s | 2 s |
| 8. | Sosial-humanitar idrak insan varlığının dəyər-məna baxımından dərk edilməsi prosesidir. | 2 s | 2 s |
| 9. | Mətn bütün humanitar elmlərin əsas reallığı kimi. | 2 s | 2 s |
| 10. | Sosial-humanitar idrakda hamı tərəfindən qəbul edilmiş vahid paradiqmanın yoxluğu. | 2 s. | 2 s. |
| 11. | Sosial-humanitar idrakın metodologiyası. | 2 s. | 2 s. |
| 12. | Hermenevtika metod və fəlsəfi sistem kimi. | 4 s. | 4 s. |
| 13. | Humanitar elmlərin səciyyəvi metodları. | 2 s. | 2 s. |
| 14. | Sosial idrakda dialoq metodu. | 2 s. | 2 s. |
| | Saatların cəmi: | 30 s. | 30 s. |
| | | 60 s. | |

## "Humanitar elmlərin fəlsəfi problemləri" kursu üzrə mühazirələr – 30 saat

### I Mövzu: 2 saat
### İdraki fəaliyyət sistemində sosial-humanitar idrakın yeri.

İdrak və onun formaları (adi məişət, mifik, dini, fəlsəfi və elmi idrak). Sosial idrak anlayışı. Sosial reallıq sosial-humanitar idrakın obyekti kimi. Sosial-humanitar idrak obyektinin spesifikliyi. Sosial-humaintar idrakın metodları. Sosial həqiqət və onun səciyyəvi xüsusiyyətləri. Sosial-humanitar idrak anlayışının iki aspekti. Cəmiyyətdə yarandığı, sosial-mədəni səbəblərlə şərtləndiyi, müəyyən funksiya yerinə yetirdiyi üçün hər bir idrak forması sosial idrakdır. Sosial idrak, humanitar idrak, sosial-humanitar idrak, «ruh haqqında elmlər», «mədəniyyət haqqında elmlər» sinonim anlayışlar kimi. Sosial-humanitar idrak sistem kimi. Sosial-humanitar elmlərin təsnifatı. Sosial-humanitar idrakın predmeti və tədqiqat metodları.

### II Mövzu: 2 saat
### Sosial-humanitar idrak predmetinin dərkinə dair materialist və idealist yanaşmalar.

Sosial-humanitar idrakın metodologiyasına dair baxışlar. Sosial-humanitar idrakın spesifikliyini mütləqləşdirən filosoflar. Neokantçılığın Baden məktəbinin nümayəndələri. Rikkert və Vindelband. Qadamer və Haydegger. Sosial idrakla təbii elmi idrak metodlarının eyniyyəti prinsipindən çıxış edən filosoflar.

Cəmiyyət məqsədyönlü fəaliyyət göstərən insanların birliyi kimi. Cəmiyyətin inkişafında əsas sövqedici amillər. K.Marks tərəfindən cəmiyyətin materialist şərhi. İctimai varlıq və ictimai şüur anlayışları. Marks: tarixi proses iqtisadi-ictimai formasiyaların bir-birini əvəzləməsi tarixidir. Marksın formasiya təliminin tarixi vulqar materialist baxımdan izah edən ekonomizmdən fərqi.

## III Mövzu: 2 saat
## Cəmiyyət haqqında elmi biliklərin formalaşmasında fəlsəfənin rolu.

Sosial-humanitar biliklərin Tarix fəlsəfəsi çərçivəsində formalaşması. Tarix fəlsəfəsi tarixi prosesin və tarixi idrakın şərhi kimi. Tarix fəlsəfəsinin sistemli şəklə salınması (Viko, Herder, Sen-Simon). Tarixilik prinsipi. Hegelin sosial tarix konsepsiyası. Klassik fəlsəfənin işləyib hazırladığı əsas ideyalar (inkişaf və tərəqqi, azadlıq və zərurət, tarixi materializmin ilk rüşeymlərinin yaranması, sosial idrakda dialektikanın mühüm rolu və s.). K.Marks tərəfindən tarixin materialist şərhi. XIX-XX əsrlərdə Qərbdə tarix fəlsəfəsinə güclü marağın yaranması. Tarixi reallıq və tarixi reallığın dərki.

## IV Mövzu: 2 saat
## Sosial-humanitar elmlərin formalaşması.

Humanitar elmlərin yaranması və formalaşmasına retrospektiv yanaşma. XVI-XVII əsrlərdə təbiət və cəmiyyət elmlərinin birləşdirilməsinə edilən cəhdlər. Təbiətşünaslığın riyazi-mexaniki-atomist idealının sosial-humanitar elmlərə sirayət etməsi. Dünyanın mexaniki mənzərəsi ümumelmi tədqiqat proqramı kimi. XIX əsrdə naturalizmin humanitar elmlərin metodları içərisində üstün rol oynaması. Təbii-elmi biliyin mütləqləşdirilməsinə dair baxışlar. Dünyanın mexaniki mənzərəsi çərçivəsində cəmiyyətin və insanın izah edilməsi cəhdləri. Cəmiyyətin və təbiətin spesifik xüsusiyyətlərinin inkar edilməsi. Cəmiyyətin coğrafi mühit, irqi və bioloji amillərlə izah edilməsinə dair baxışlar. Sosial qanunauyğunluqların inkar edilməsi.

XIX əsrin başlanğıcı sosial-humanitar elmlərin aktiv formalaşdığı dövrdür. XIX-XX əsrlərdə mədəniyyət haqqında elmlərin təbiətşünaslıqdan fərqli konseptual-metodoloji fundamentinin olmasına dair baxışlar (Neokantçılığın Baden məktəbi və «Həyat fəlsəfəsi» cərəyanları). Cəmiyyətin bütöv sistem kimi təhlili. Sosial idrakın metodoloji problemlərinin mədəniyyət haqqında elmlər çərçivəsində araşdırılması.

## V Mövzu: 2 saat
## Dilteyin təsviri psixologiyası və hermenevtikası.

«Həyat fəlsəfəsi» cərəyanın yaranması mexaniki təbiətşünaslığın böhranına reaksiya kimi. «Həyat fəlsəfəsi» cərəyanının nümayəndələri: Diltey, Nitşe, Zimmel, Berqson, Şpenqler. İnsan və tarix. İnsan tarixin özüdür. Təbiət aləminin tarix aləmindən ayrılması. Həyat anlayışının iki mənası (canlı varlıqların qarşılıqlı təsiri - təbiət aləmi, şəxsiyyətlərarası qarşılıqlı təsir -cəmiyyət). Dilteyin elmlərin təsnifatına dair baxışları. Təbiət haqqında və ruh haqqında elmlər. Dilteyin humanitar elmlərin müstəqil elm sahəsi olmasına dair baxışları. Sosial gerçəkliyin dərki ruh haqqında elmlərin məqsədi kimi. Anlama və izah metodları. Ditey: anlama metodu ruh haqqında elmlərin, izah metodu təbiət elmlərinin əsas metodu kimi. Hermenevtika şərh üsulu kimi. Diltey fəlsəfəsində hermenetika bütün humanitar biliyin metodoloji əsası kimi. Anlamanın iki növü: introspeksiya və empatiya. Diltyein «Tarixi idrakın tənqidi» əsəri.

## VI Mövzu: 2 saat
## Neokantçılığın Baden məktəbi.

Kant təliminin inkişaf etdirilməsində Baden məktəbi nümayəndələrinin rolu. V.Vindelband və Q.Rikkert Neokantçılığın Baden məktəbinin baniləridir. Baden məktəbi nümayəndələrinin etika və estetikanın tənqidinə dair baxışları. Sosial-tarixi idrak metodları Baden məktəbi nümayəndələrinin konsepsiyasının əsası kimi. Baden məktəbi nümayəndələrinin sosial idrakın formaları, metodları, onların təbiət elmlərindən fərqli xüsusiyyətləri haqqında baxışları. Cəmiyyətin təhlil edilməsində Baden məktəbi nümayəndələrinin Marburq məktəbi nümayəndələrindən fərqli xüsusiyyətləri.

Vindelband təlimində mühakimə, qiymətvermə humanitar idrakın əsas cəhəti kimi. Vindelband tərəfindən elmlərin klassifikasiyası. Vindelbandın elmlərin təsnitaına dair baxışları Dilteyin təsnifatına qarşı. Vindelband tərəfindən elmlərin iki əsas sinfə bölünməsi: təbiət haqqında və ruh haqqında elmlər. Rikkert sosial-humanitar idrakın əsas xüsu-

siyyətləri haqqında. Rikkert sosial idrak obyektinin təkrarolunmazlığı haqqında. Sosial-humanitar idrakın dəyərlərdən tam asılı olması.

**VII Mövzu: 2 saat**

**Qusserel ruh haqqında elmin səciyyəvi xüsusiyyətləri haqqında.**

Qusserelin ruh haqqında elmlərin predmetinə dair baxışları (insan, onun həyat və fəaliyyəti, yaradıcılıq məhsulları). Qusserelin "Xalis fenomenologiyanın ideyaları" əsəri. Qusserelin ruh haqqında elmlərin metodlarına və "ruh haqqında elm"in spesifik xüsusiyyətlərinə dair baxışları. Qusserelin Avropa cəmiyyətinin və fəlsəfəsinin böhranı haqqında baxışlari. Qusserel fenomenologiyasında intensial aktlar (mənayaradan) haqqında. Fenomenologiyada deskripsiya metodu.

**VIII Mövzu: 2 saat**

**Sosial-humanitar idrak insan varlığının dəyər-məna baxımından dərk edilməsi prosesidir.**

Həqiqət anlayışı. Həqiqət və yanılma ziddiyyətlərin vəhdəti kimi. Həqiqət idrakın son məqsədi kimi. Yanılmanın formaları: elmi və qeyri-elmi; empirik və nəzəri; dini və fəlsəfi. Yanılmanın yalandan fərqi. Həqiqətin bilərəkdən təhrifi, dezinformasiya. Yanılma və səhv. Obyektiv və subyektiv həqiqət. Mütləq və nisbi həqiqət. Həqiqətdə mütləq və nisbi tərflərin münasibətinə dair iki zidd baxış: doqmatizm və relyativizm. Hegelin həqiqətin mücərrəd deyil, konkret olması haqqında fikirləri. İstənilən həqiqi biliyin məzmununa və tətbiq olunmasına görə məkan, zaman və c. göstəricilərindən asılılığı. Həqiqətin meyarı. Həqiqət və dəyər. Dəyər münasibətlərinin mahiyyəti. Qiymət, funksiyaları, növləri, strukturu. Həqiqət və ideal. Həqiqət və şərtilik. Həqiqət və metod.

**IX Mövzu: 2 saat**

**Mətn bütün humanitar elmlərin əsas reallığı kimi.**

Mətn və onun dərki problemi. Humanitar tədqiqatda mətnin funksiyaları. Mətnini metalinqivistik təbiəti. Tekst və kontekst.

Humanitar tədqiqatda işarə obyekt və vasitə kimi. Simvolun dialektikası və mədəniyyətin semiotikası. Mətnin metodoloji izahı. Sossyurun strukturalizm metodu. Propp mətnin struktur təhlili metodu haqqında. Propp nağılların strukturu haqqında. Sossyur sinxroniya və dioxroniya haqqında. Strukturalizmin iki dalğası. Rus və fransız strukturalizmi. Tənqidi strukturalizm. Poststrukturalizm. Postrukturalizmin əsas nümayəndələri: Bart, Derrida, Delez, Kvattari. Levi-Stross struktur antropologiya haqqında.

### X Mövzu: 2 saat

### Sosial-humanitar idrakda hamı tərəfindən qəbul edilmiş vahid paradiqmanın yoxluğu.

Sosial-humanitar idrakda ümumqəbuledilmiş paradiqmanın yoxluğu. Marksizm ideologiyası sovet dövrü elmi tədqiqatlarının vahid paradiqması kimi. XX əsrin ikinci yarısında Qərb sosioloji fikrində yaranan fəlsəfi konsepsiyalar. Tənqidi sosiologiya (Darendorf, Adorno, Markuze, Fromm). Fenomenoloji sosiologiya (Şyüts, Qoffman, Berqer, Lukman). Tənqidi realizm sosiologiyası (Bxaskar, Autveyt). Sistem-struktur və struktur funksional sosiologiya (Blau, Parsons, Merton, Fuko). Sosial münasibətlərin sosioloji konsepsiyası (Mid, Xanas, Moren). Sənaye və postsənaye cəmiyyətinin sosioloji konsepsiyası (Bell, Toffler, Vallerstayn). Feminizm və gender tədqiqatlarının sosiologiyası (İriqarn). Sosial metodologiyada yeni paradiqma. T.Kun «Elm inqilabları» haqqında.

### XI Mövzu: 2 saat

### Sosial-humanitar idrakın metodologiyası.

Sosial idrakın metodoloji prinsipləri. Obyektivlik prinsipi. İnikas və idrakın yaradıcı təbiəti. Tarixi biliyin (tarixi şüurun) obyektivliyi. Psixi obyektivlik haqqında. Dil haqqında biliyin obyektivliyi. Tarixilik prinsipi. Tarixilik və inkişaf nəzəriyyəsi. Tarixilik və zaman kateqoriyası. Tarixi və məntiqi. Sistem-struktur yanaşma. Sosial idrakın metodlarının özünəməxsusluğu. Sosial idrakın metodları. Sistemli-

struktur təhlil metodu. Tarixi-genetik və substrat əşyavi metod. Humanitar şəxsiyyət mövqeyindən yanaşma metodu. Hermenevtik metod. Sinergetik metod.

## XII MÖVZU: 4 saat
## Hermenevtika metod və fəlsəfi sistem kimi.

Hermenevtika metodunun yaranması və inkişafı tarixi. Sofistlər hemenevtik metodun yaradıcıları kimi. Aleksandriya və Perqam məktəbləri hermenevtika problemləri haqqında. Teoloji hermenevtika. Avreli Avqustinin konseptual yanaşma metodu. A.Avqustinin ekzegetika metodu. F. Şleqel tərəfindən hermenevtikanın ümumi fəlsəfi problem kimi irəli sürülməsi. F.D.Şleyermaxer hermenevtika təliminin yaradıcısıdır. Şleyermaxer fəlsəfəsində ifadəetmə hermenevtikanın predmeti kimi. Şleyermaxer hermenevtikasında dil və təfəkkür əlaqəsi. Şleyermaxer təlimində hermenevtik dairə prinsipi (tamı anlamaq üçün onun ayrı-ayrı hissələrini anlamaq zərurəti). Hermenevtik dairənin əmələ gəlməsində devinasiya və müqayisə metodlarının vəhdəti. Şleyermaxer Hermenevtikanın predmeti haqqında. Reformasiya dövründə hermenevtik çevriliş.

Anlama hermenevtikanın əsas kateqoriyası kimi. Dil fenomeni anlamanın mühüm amilidir. Mətnin anlamında tərcümənin rolu. Anlayış, bilik, dil və simvol.

İzahın mənadan ayrılmazlığı. İzah mətnin yenidən təsviri kimi. İzah mətnin dərin məna qatlarının açılması üsuludur. İzah metodunun əsas funksiyası.

## XIII Mövzu: 2 saat.
## Humanitar idrakın səciyyəvi metodları.

Humanitar biliyin səviyyələri: empirik, nəzəri və metodoloji. Empirik tədqiqat metodları. Müşahidə metodu. Humanitar elmlərdə müşahidə metodunun subyektiv xarakteri. Eksperiment metodu. Sosial eksperiment. Sosial eksperimentin növləri. Tədqiqat obyekti və predmetinin xarakterinə görə sosial eksperimentin növləri. Sosioloji

eksperiment. İqtisadi eksperiment. Hüquqi eksperment. Eksperimental-psixoloji eksperiment. Qarşıya qoyulmuş vəzifənin spesifikliyinə görə sosial eksperimentin növləri. Elmi eksperiment. Tətbiqi eksperiment. Layihə eksperimenti. Fikri eksperiment. Təbii eksperiment. Laboratoriya eksperimenti. Komparativist metod. Bioqrafik metod. Sənədlərin təhlili metodu. İdeoqrafik metod. İdeoqrafik metodun elmi dövriyəyə Vindelband tərəfindən gətirilməsi. Nomotetik metod təbiətşünaslıq elmlərində işlədilən metod kimi. Nomotetik metod dayanıqlı və sabit əlaqələrin ifadə edilməsi metodu kimi. İdeoqrafik metod unikal, təkrar olunmayan hadisələrin izahı üsulu kimi. Rikkert ümumiləşdirici və fərdiləşdirici metodlar haqqında. Generalizasiya (ümumiləşdirici) təbiətşünaslıqda, individualizasiya (fərdiləşdirici) humanitar elmlərdə işlədilən metodlar kimi.

## XIV Mövzu: 2 saat
## Sosial idrakda dialoq metodu.

Dialoq sosial-humanitar idrakın səciyyəvi xüsusiyyətidir. Dialoq insanlararası qarşılıqlı təsirin ən mürəkkəb forması kimi. Sokrat fəlsəfi dialektikanın və dialoqun banisidir. Sokrat dialektikasında dialoq həqiqətin əldə edilməsi üsulu kimi. Sokrat fəlsəfəsində dialoq canlı ünsiyyət vasitəsi kimi. Dialoqun qurulması: sualın meydana gəlməsi (problem situasiyasının yaranması) və cavablandırma (problemin həll edilməsi). Sokratın dialoq metodunun strukturuna daxil olan elementlər: ironiya, mayevtika, induksiya, müəyyənetmə. Dialoq metodunun təkmilləşdirilməsində Platonun rolu. Platon anamnezisinin ("bilik" xatırlamadır) əsas momentləri: dialektika sənət və xüsusi qabiliyyət kimi. Dialektika və eristika. Dialektikanın bütün elmlərdən yüksək durması və elmlərin zirvəsi olması haqqında Platonun baxışları. İntibah dövründən sonra dialoq metoduna marağın azalması. XX əsrin ortalarında sosial-humanitar elmlərdə dialoqa həqiqətin əldə edilməsi üsulu kimi marağın artması. "Dialoq fəlsəfəsi" – Buber, Ebner, C.Kollinqvud, Qadamer və başqaları. Baxtin fəlsəfəsində dialoq fikir

mübadiləsi kimi. Q.İ. Ruzavin fəlsəfəsində dialoqun üç növü: didaktik dialoq, axtarış xarakterli dialoq, praktik dialoq.

**“Humanitar elmlərin fəlsəfi problemləri”**
**kursu üzrə məşğələlərin planı – 30 saat.**

**I Mövzu: 2 saat**
**İdraki fəaliyyət sistemində sosial-humanitar idrakın yeri.**

1. İdrak və onun formaları.
2. Sosial-humanitar idrakın özünəməxsus cəhətləri.
3. Humanitar elmlərin təsnifatı.

**Ədəbiyyat:**

1. Бахтин М.М. К методологии гуманитарных наук. М., 1979.
2. Варулин В.С. Социальная философия. М., 2000, с.560.
3. Габитова Р.М. «Универсальная» герменевtика Фридриха Шлейермахера. – Герменевтика: история и современность. Критические очерки. М., 1985.

**II Mövzu: 2 saat**
**Sosial-humanitar idrak predmetinin dərkinə dair materialist və idealist yanaşmalar.**

1. Sosial-humanitar idrakın spesifikliyini mütləqləşdirən filosoflar.
2. Neokantçılığın Baden məktəbinin nümayəndələri.
3. Cəmiyyətin inkişafında əsas sövqedici amillər.

**Ədəbiyyat:**

1. Бахтин М.М. К методологии гуманитарных наук. М., 1979.
2. Варулин В.С. Социальная философия. М., 2000, с.560.
3. Габитова Р.М. «Универсальная» герменевtика Фридриха Шлейермахера. – Герменевтика: история и современность. Критические очерки. М., 1985.

**III Mövzu: 2 saat**
**Cəmiyyət haqqında elmlərin formalaşmasında fəlsəfənin rolu.**

1. Sosial-humanitar biliklərin Tarix fəlsəfəsi çərçivəsində formalaşması.

2. Tarix fəlsəfəsi və tarixi idrak.
3. Tarix fəlsəfəsinin sistemli şəklə salınması.

**Ədəbiyyat:**

1. Кириллова Е.А. Некоторые методологические проблемы интерпретации текста висторико-философском исследовании. – Проблемы интерпретации в истории науки и философи. Сб.науч. трудов. Новосибирск., 1985.
2. Кемеров В.А. В ведение в социальную философию. М., 2000. С.314.
3. Кохановский.В.П. Философские проблемы социально-гуманитарных наук. М., 2005. с. 315.

## IV Mövzu: 2 saat

## Sosial-humanitar elmlərin formalaşması.

1. Təbiət və cəmiyyət elmlərinin birləşdirilməsinə edilən cəhdlər.
2. Təbii-elmi biliyin mütləqləşdirilməsinə dair baxışlar.
3. XIX-XX əsrlərdə sosial idrakın metodoloji prinsiplərinin mədəniyyət haqqında elmlər çərçivəsində araşdırılması.

**Ədəbiyyat:**

1. Горсксий В.С. Историко-философское истолкование текста. Киев, 1981.
2. Дильтей В. Описательная психология. М., 1924.
3. Кириллова Е.А. Некоторые методологические проблемы интерпретации текста висторико-философском исследовании. – Проблемы интерпретации в истории науки и философи. Сб.науч. трудов. Новосибирск., 1985.

## V Mövzu: 2 saat

## Dilteyin təsviri psixologiyası və hermenevtikası.

1. “Həyat fəlsəfəsi” cərəyanı mexaniki təbiətşünaslığn böhranına reaksiya kimi.
2. Dilteyin elmlərin təsnifatına dair baxışları.
3. Diltey fəlsəfəsində hermenevtika bütün humanitar biliyin metodoloji əsası kimi.

**Ədəbiyyat:**

1. Габитова Р.М. «Универсальная» герменевтика Фридриха Шлейермахера. – Герменевтика: история и современность. Критические очерки. М., 1985.
2. Гадамер Х.Г. истина и метод. М., «Прогресс», 1988.
3. Герменевтика: история и современность. Критические очерки. М., 1985.

### VI Mövzu: 2 saat
### Neokantçılığın Baden məktəbi.

1. Baden məktəbi nümayəndələri sosial-tarixi idrak metodları haqqında baxışları.
2. Vindelbandın elmlərin təsnifatına dair baxışları.
3. Q.Rikkertin etika və estetikanın tənqidinə dair fikirləri.

**Ədəbiyyat:**

1. Бахтин М.М. К методологии гуманитарных наук. М., 1979.
2. Варулин В.С. Социальная философия. М., 2000, с.560.
3. Дильтей В. Описательная психология. М., 1924.

### VII Mövzu: 2 saat
### Qusserel ruh haqqında elmin səciyyəvi xüsusiyyətləri haqqında.

1. Qusserel ruh haqqında elmlərin metodları haqqında.
2. Qusserel fenomenologiyası.

**Ədəbiyyat:**

1. Кириллова Е.А. Некоторые методологические проблемы интерпретации текста висторико-философском иссле-

довании. – Проблемы интерпретации в истории науки и философи. Сб.науч. трудов. Новосибирск., 1985.
2. Кемеров В.А. В ведение в социальную философию. М., 2000. С.314.
3. Кохановский.В.П. Философские проблемы социально-гуманитарных наук. М., 2005. с. 315.
4. Кузнецов В.Г. Герменевтика и гуманитарное познание. М., 1991.

**VIII Mövzu: 2 saat**

**Sosial-humanitar idrak insan varlığının dəyər-məna baxımından dərk edilməsi prosesidir.**

1. Həqiqət anlayışı.
2. Həqiqət və dəyər.
3. Həqiqət və metod.

**Ədəbiyyat:**

1. Михайлов А.А. Современная философская герменевтика. Критический анализ. Минск, 1984.
2. Понимание как логико-гносеологическая проблема. Киев, 1982.
3. Шпет Г.Г. Герменевтика и ее проблемы (продолжение). Контекст – М., 1990.

**IX Mövzu: 2 saat**

**Mətn bütün humanitar elmlərin əsas reallığı kimi.**

1. Mətnin metalinqvistik təbiəti.
2. Mətnin metodoloji izahı.
3. Strukturalizmin iki dalğası.

**Ədəbiyyat:**

1. Гадамер Х.Г. истина и метод. М., «Прогресс», 1988.
2. Герменевтика: история и современность. Критические очерки. М., 1985.

3. Горсксий В.С. Историко-философское истолкование текста. Киев, 1981.

**X Mövzu: 2 saat**

**Sosial-humanitar idrakda hamı tərəfindən qəbul edilmiş vahid paradiqmanın yoxluğu.**

1. Marksist ideologiya.
2. Sosial metodologiyada yeni paradiqma.
3. XX əsrin ikinci yarısında Qərb sosioloji fikrində yaranan fəlsəfi konsepsiyalar.

**Ədəbiyyat:**

4. Степин В.С. Теоретическое знание. М., 2000.
5. Туркулец А.В. Введение в методологию социального познания. – Хабаровск, 2004.

**XI Mövzu: 2 saat**

**Sosial-humanitar idrakın metodologiyası.**

1. Sosial idrakın metodoloji prinsipləri.
2. Sosial idrakın metodlarının özünəməxsusluğu.
3. Hermenevtik metod.

**Ədəbiyyat:**

4. Кузнецов В.Г. Герменевтика и гуманитарное познание. М., 1991.
5. Малиновская К.И. Понимание и его роль в науке. – «Философские науки», 1974, №1.
6. Михайлов А.А. Современная философская герменевтика. Критический анализ. Минск, 1984.
7. Понимание как логико-гносеологическая проблема. Киев, 1982.

**XII Mövzu: 4 saat**

**Hermenevtika metod və fəlsəfi sistem kimi.**

1. Hermenevtika metodunun yaranması və inkişafı tarixi.

2. Teoloji hermenevtika.
3. F.D.Şleyermaxer hermenevtika təliminin yaradıcısıdır.
4. Anlama hermenevtikanın əsas kateqoriyası kimi.
5. İzahın mənadan ayrılmazlığı.

**Ədəbiyyat:**


1. Hacıyeva Arzu. Mədəni-tarixi irs və fəlsəfi hermenevtika.- "Dirçəliş - XXI əsr", 2000. № 6.
2. Hacıyeva Arzu. Mədəni-tariix irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti. Bakı, Adiloğlu nəşriyyatı, 2004. 168 s.


**XIII Mövzu: 2 saat**

**Humanitar idrakın səciyyəvi metodları.**

1. Empirik tədqiqat metodları.
2. İdeoqrafik metod.
3. Nomotetik metod.

**Ədəbiyyat:**


1. Кириллова Е.А. Некоторые методологические проблемы интерпретации текста висторико-философском исследовании. – Проблемы интерпретации в истории науки и философи. Сб.науч. трудов. Новосибирск., 1985.
2. Кемеров В.А. В ведение в социальную философию. М., 2000. С.314.


**XIV Mövzu: 2 saat**

**Sosial idrakda dialoq metodu.**

1. Dialoq insanlararası qarşılıqlı təsirin ən mürəkkəb forması kimi.
2. Sosial-humanitar elmlərdə dialoq həqiqətin əldə edilməsi üsulu kimi.
3. "Dialoq fəlsəfəsi".

**Ədəbiyyat:**

1. Кохановский.В.П. Философские проблемы социально-гуманитарных наук. М., 2005. с. 315.
3. Кузнецов В.Г. Герменевтика и гуманитарное познание. М., 1991.

**İstifadə olunmuş ədəbiyyat**

**Azərbaycan dilində**

1. Hacıyeva Arzu. Mədəni-tarixi irs və fəlsəfi hermenevtika.- ”Dirçəliş - XXI əsr”, 2000. № 6.
2. Hacıyeva Arzu. Mədəni-tariix irsin tədqiqində hermenev-tikanın fəlsəfi və metodoloji əhəmiyyəti. Bakı, Adiloğlu nəşriyyatı, 2004. 168 s.
3. Hacıyev Z.C. Fəlsəfə. Bakı. 2012, 488 s.
4. İmanov H.R. Fəlsəfənin əsasları. Bakı. 2007.
5. Mehdiyev R.Ə. Fəlsəfə. Bakı, 2010.

**Rus dilində**

6. Бахтин М.М. К методологии гуманитарных наук. М., 1979.
7. Варулин В.С. Социальная философия. М., 2000, с.560.
8. Габитова Р.М. «Универсальная» герменевтика Фридриха Шлейермахера. – Герменевтика: история и современность. Критические очерки. М., 1985.
9. Гадамер Х.Г. истина и метод. М., «Прогресс», 1988.
10. Герменевтика: история и современность. Критические очерки. М., 1985.
11. Горсксий В.С. Историко-философское истолкование текста. Киев, 1981.
12. Дильтей В. Описательная психология. М., 1924.
13. Кириллова Е.А. Некоторые методологические проблемы интерпретации текста висторико-философском исследовании. – Проблемы интерпретации в истории науки и философи. Сб.науч. трудов. Новосибирск., 1985.

14. Кемеров В.А. В ведение в социальную философию. М., 2000. С.314.
15. Кохановский.В.П. Философские проблемы социально-гуманитарных наук. М., 2005. с. 315.
16. Кузнецов В.Г. Герменевтика и гуманитарное познание. М., 1991.
17. Малиновская К.И. Понимание и его роль в науке. – «Философские науки», 1974, №1.
18. Михайлов А.А. Современная философская герменевтика. Критический анализ. Минск, 1984.
19. Понимание как логико-гносеологическая проблема. Киев, 1982.
20. Шпет Г.Г. Герменевтика и ее проблемы (продолжение). Контекст – М., 1990.
21. Степин В.С. Теоретическое знание. М., 2000.
22. Туркулец А.В. Введение в методологию социального познания. – Хабаровск, 2004.
23. Фуко М. Слова и вещи: Археология гуманитарных наук. – СПб, 1994.